# Yaddaşlardan silinməyən an





15 sentyabr. İlk dərs və "Bilik günü". Bu gün ölkəmizin hər yerində yeni dərs ili başlayır. İlk dərs günü ömrün yaddaqalan anlarındandır. Azərbaycan Prezidenti cənab İlham Əliyevin 21 avqust 2004-cü il tarixli fərmanı ilə respublikamızın bütün təhsil ocaqlarında dərslərin 15 sentyabrdan başlaması qərara alınmış və həmin gün "Bilik günü" elan olunmuşdur. Öz ənənələri olan, Bakı şəhərinin ən nüfuzlu təhsil ocaqlarından biri olan 115 saylı tam orta məktəbin kollektivi də bu günü yüksək əhval-ruhiyyə ilə qarşılayır. Bayramsayağı bəzədilmiş məktəbin həyətində böyük canlanma var və hamı ilk dərs, "Bilik Günü"nə həsr olunmuş tədbirin açılışına toplaşmışdır. Məktəbin yuxarı sinif şagirdləri, məzunlar, ilk dəfə məktəbə qədəm qoyan birincilər və valideynlər, hər kəs böyük sevinc içində idi. Üçrəngli bayrağımız gətirilir və Azərbaycanın Dövlət Himni səslənir. Sonra "Bilik günü"nə həsr olunmuş tədbiri Binəqədi rayonu şəhid Azər Məmmədov adına məktəbin direktor əvəzi Zahid Canayev açdı. O, məktəbin pedaqoji kollektivini, şagird və valideynləri, tədbirə toplaşan qonaqları yeni dərs ilinin başlanması münasibətilə təbrik etdi, onlara bu tədris ilində uğurlar arzuladı. Zahid Canayev çıxışında milli təhsilimizin inkişafı, onun yenidən qurulması, dünya təhsil sisteminə inteqrasiyası, Azərbaycan təhsilinə dövlət qayğısından danışaraq qeyd



etdi ki, təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş təhsil islahatları bu gün Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı Mehriban Əliyeva təhsilin müasir tələblər səviyyəsinə yüksəldilməsində müstəsna rol oynayır. Mehriban xanımın gündəlik qayğı və səyi nəticəsində təhsil quruculuğu işləri müvəffəqiyyətlə davam etdirilir, "Yeniləşən Azərbaycana yeni məktəblər" layihəsi uğurla reallaşdırılır.

Sözünə davam edən direktor vurğuladı ki, məktəbimiz ötən tədris ilində əsaslı təmir olunmuşdur. Açılışda cənab İlham Əliyev şəxsən iştirak etmiş, məktəbin imkanları ilə tanış olmuşdur. Kollektivimizə göstərdiyi bu qağıya görə ölkə başçısına pedaqoji kollektiv adından bir daha dərin minnətdarlığımızı bildiririk. Belə şəraitdə yaxşı oxumaq bütün şagirdlərin borcudur. Qeyd edim ki, bu il məktəbi bitirən 125 məzundan 71 nəfəri ali məktəblərə daxil olmuşdur ki, bu da 55 faiz göstəricidir. Bir şagirdimiz Nicat Rzazadə 667 balla Bakı Dövlət Universitetinə qəbul olunmuşdur. 14 nəfər məzunumuz isə 500-dən artıq bal toplamışdır. Bu il 1-ci sinfə 225 şagird qəbul olunmuşdur. Bu göstərici keçən il 140 nəfər olmuşdur. Göründüyü kimi, artım dinamikası yüksəkdir. Rus bölməsində keçən il 1 sinif, bu il isə 2 sinif açılmışdır. Məktəbimizin bütün fənn otaqları müasir avadanlıqlar, kompüter dəstləri ilə təchiz olunmuşdur. Fürsətdən istifadə edib bu gün 1-ci sinfə qədəm qoyan şagirdlərə və 11-cilərə müraciət edirəm ki, yaradılan bu şəraitə cavab olaraq yaxşı oxusunlar, məktəbin ənənələrini qoruyub saxlasınlar.

İlk dərs ili təkcə müəllim və şagirdlər üçün deyil, həm də valideynlər üçün də sevincli gündür. Bu səbəbdən bütün valideynlərin üzündə sevinc, təbəssüm aydın sezilirdi. Valideynlərdən Ülkər Əhmədova öz sevincini bizimlə bölüşərək dedi:

—Qızım Gülay Məmmədzadə də artıq 1-ci sinfə qədəm qoyur. Mən bir valideyn kimi bu gün də çox sevincliyəm. Orta məktəbə qədəm qoyan 1-ci sinif şagirdlərinə yaxşı oxumağı, vətənə və millətə layiqli övlad kimi böyümələrini arzu edirəm. Bütün valideynlər adından məktəbin pedaqoji kollektivinə yeni dərs ilində müvəffəqiyyətlər diləyirəm.

Sonda çıxış edən müəllimlər, qonaqlar, valideynlər "Bilik günü" münasibətilə hamını təbrik etdilər, müəllim və şagirdlərə yeni dərs ilində uğurlar arzuladılar.

**Əli SADIQOV,**
**"Respublika".**